*Azərbaycan Xalq Cümhuriyyəti - 100*

# Şərqdə ilk demokratik dövlət

***Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.***

Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı eyni zamanda milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət Dumasına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycanı Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkənin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsinə və yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalı bəyannaməsini dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika günü olaraq təntənə ilə qeyd edir.

**Zinyət BAĞIROVA,**
**qeydiyyat idarəsinin rəisi.**

# "Kitabsevərlər klubu"nun növbəti toplantısı keçirilmişdir

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qəbələ rayonu üzrə pilot layihəsi çərçivəsində Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz tərəfindən mədəni-maarif müəssisələrinin tanıdılması və kitab oxumaq ənənələrinin bərpası məqsədilə Çuxur Qəbələ kənd məktəbində "Kitabsevərlər klubu"-nun növbəti toplantısı keçirilmişdir. Tədbirdə kənd kitabxana filialının və diyarşünaslıq evinin işçiləri, məktəbin müəllimləri və şagirdləri iştirak etmişlər.

Toplantıda kənd kitabxanası tərəfindən təşkil olunmuş kitab sərgisi, məktəbli oxucuların asudə vaxtlarında çəkdikləri rəsmlər və digər tətbiqi-dekorativ əl işləri iştirakçıların marağına səbəb olmuşdur.

**Günel QARAYEVA,**
**mərkəzi kitabxananın işçisi.**

# Tədris səfərində olublar

*Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri Qəbələ rayonunda müxtəlif tipli heyvandarlıq təsərrüfatları ilə tanış olublar. Tanışlıq Kənd Təsərrüfatı Nazirliyinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi" çərçivəsində reallaşıb.*

*Layihənin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Subkomponentinin dəstəyi ilə universitet tələbələri Yeni Zelandiyadan dəvət edilmiş təcrübəli mütəxəssisin iştirakı ilə Qəbələ rayonunda fəaliyyət göstərən "Gilan Holdinq Aqrokompleks Qəbələ" MMC şirkətinə səfər ediblər.*

*Səfər çərçivəsində tələbələr təsərrüfat rəhbərləri, baytarlıq mütəxəssisləri ilə məhsuldar görüşlər keçirib və onları maraqlandıran suallara ətraflı cavablar alıblar.*

*"Gilan Holdinq Aqrokompleks Qəbələ" MMC şirkətinə səfər zamanı tələbələr burada heyvandarlıqda tətbiq olunan yeni texnologiyalar barədə məlumatlandırılıblar. Onlar karusel tipli 24 başlıq sağım xətti ilə əyani şəkildə tanış olub, xəstə heyvanlar üzərində tətbiq edilən müalicə tədbirləri, heyvandarlıqda balanslaşdırılmış yemləmənin tətbiqinin əhəmiyyəti barədə praktik biliklərə yiyələniblər.*

***"Qəbələ"***

# 2018-ci ilin birinci rübü ərzində rayonun sosial-iqtisadi inkişafı haqqında məlumat

***2018-ci ilin birinci rübü ərzində ölkəmizdə sosial-iqtisadi inkişafı davam etmiş, Azərbaycan regionda lider dövlət olaraq öz mövqeyini bir qədər də möhkəmləndirmişdir. Ölkəmizin beynəlxalq aləmə inteqrarasiyası bir qədər də sürətlənmiş, Avropanın enerji təhlükəsizliyinin təminatındakı rolu xeyli artmışdır.***

***Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının uğurla yerinə yetirilməsi sahəsində ölkəmizdə bir sıra mühüm tədbirlər həyata keçirilmiş, sosial infastruktur layihələri yerinə yetirilmişdir. Yeni istehsal sahələri yaradılmış, çoxlu sayda sosial-iqtisadi yönümlü obyektlər tikilmiş, geniş miqyaslı abadlıq- quruculuq işləri görülmüşdür.***

Respublikamızın hər yerində olduğu kimi Qəbələ rayonunda da geniş yaraşıqlı asfalt yollar salınmış, turizm infrastrukturu genişləndirilmiş və tikinti-quruculuq işləri davam etdirilmişdir. Rayonun qəsəbə və kəndlərinə yeni qaz xətləri çəkilmiş, iqtisadiyyatın əsas sahələri olan sənaye, kənd təsərrüfatı və sosial sahələrdə bütün işlər uğurla icra olunmuşdur.

**Demoqrafik vəziyyət**

Qəbələ rayonun ərazisi 1548 kv km-dir. 1 aprel 2018-ci il tarixə rayonda əhalinin sayı 105716 nəfər olmuşdur. Əhalinin sıxlığı hər kv km-da 67.3 nəfərdir.

Rayonda 1 şəhər, 3 qəsəbə və 60 kənd yaşayış məntəqəsi vardır. Əhalinin 14060 nəfəri yaxud 13,3 faizi şəhər, 22095 nəfəri yaxud 20,9 faizi qəsəbə, qalan 69561 nəfəri yaxud 65.8 faiz kənd yerlərində yaşayır.

Eləcə də rayonda 690 məcburi köçkün ailəsi və bu ailələrdə 2380 nəfər məcburi köçkün vardır. Rayonda 1 şəhər, 3 qəsəbə, 56 kənd inzibati ərazi nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir.

2018-ci ilin birinci rübündə 354 körpə doğulmuş və 165 nəfər vəfat etmişdir.

Rüb ərzində 91 nikah və 36 boşanma qeydə alınmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 31 nəfər azalmış, boşananların sayı isə 14 nəfər artmışdır.

**İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə məhsul buraxılışı**

2018-ci ilin üç ayı ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 40340,2 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin həmin dövründən 11307,5 min manat yaxud 38,9 faiz çoxdur.

Keçən ilə nisbətən ümumi məhsul buraxılışı kənd təsərrüfatında 325 min manat yaxud 3.2 faiz, nəqliyyatda 42,0 min manat yaxud 3,9 faiz, ticarətdə 369 min manat yaxud 4,3 faiz, sənayedə 2837,8 min manat yaxud 39,4 faiz, rabitədə 26 min manat yaxud 10,1 faiz, tikintidə isə 7707,7 min manat və ya 5,4dəfə artmışdır.

Adambaşına düşən ümumi məhsul buraxılışı keçən ilin müvafiq dövrü ilə müqayisədə 104 manat artaraq 381 manata çatmışdır.

**Kənd təsərrüfatı**

Rayonda keçən ilin payızında 20100 hektar sahədə payızlıq taxıl əkilmişdir. Bu il mart ayının üçüncü ongünlüyündə yazlıq bitkilər əkininə başlanılmış və qısa müddətdə aprel ayının 1-i vəziyyətinə 131 hektar sahədə kartof, 50 hektar sahədə tərəvəz, 175 hektar sahədə çoxillik ot (yonca), 15 hektar sahədə şəkər çuğunduru, 40 hektar sahədə qarğıdalı və 548.6 hektar sahədə dənli paxlalılar və yaşıl yem bitkiləri əkilmişdir.

Keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 7 ton, süd istehsalı 351 ton, yumurta istehsalı isə 2100 min ədəd artmışdır.

**(Ardı gələn sayımızda).**

# 2018-ci ilin may ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

# YADDAŞ

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssislər**

● **2018-ci il üzrə Torpaq vergisinin bəyannaməsini** cari ilin **may ayının 15-dən** gec olmayaraq vergi orqanına təqdim etmədirlər.

● **2018-ci ilin 2-ci rübü üzrə əmlak vergisinin** cari ödəmələrini cari ilin **may ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**2018-ci ilin aprel ayına görə vergi ödəyiciləri tədiyəçisi olduqları**

● **Əlavə dəyər vergisinin bəyannaməsini,**

● **Aksiz bəyannaməsini,**

● **Yol vergisinin bəyannaməsini,**

● **Mədən vergisinin bəyannaməsini,**

● **Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsini** və

● **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini** cari ilin **may ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

● **Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannaməsi** cari ilin **may ayının 21-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

● **Muzdlu işlə əlaqədar 2018-ci ilin aprel ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi** cari ilin **may ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (*ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 2-ci rübü üzrə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).*

● **Xüsusi notariusların 2018-ci ilin aprel ayı üzrə hesabladığı gəlir vergisi** cari ilin **may ayının 21-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

* * *

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə **40 manat** məbləğində **maliyyə sanksiyası** tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün **0,1 faizi** məbləğində **faiz** tutulur (VM, 59).

**Hörmətli vergi ödəyiciləri,** Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

**10 saylı Ərazi Vergilər İdarəsi**